# Həftəlik
# *Bülleten*



**124**
**9 Yanvar 2026**

Xəbərlər
Tədbirlər
Görüşlər
Tender və lahiyələr
Dünya tikililəri

ATMİA

info@atmia.az www.atmia.az

**Azərbaycan–Suriya İşgüzar Şurası yaradılır.**

Azərbaycan ilə Suriya arasında ticarət-iqtisadi əlaqələrinin inkişaf etdirilməsi və işgüzar əməkdaşlığın genişləndirilməsi məqsədilə Azərbaycan–Suriya İşgüzar Şurasının yaradılması nəzərdə tutulur.
Bu barədə İxracın və İnvestisiyaların Təşviqi Agentliyindən (AZPROMO) məlumat verilib.
Bildirilib ki, bu çərçivədə Suriya bazarı ilə əməkdaşlıqda maraqlı olan, ticarət, investisiya, İT, tikinti, istehsal, sənaye, xidmət və digər sahələrdə fəaliyyət göstərən yerli şirkətlər Azərbaycan–Suriya İşgüzar Şurasına üzv olmağa dəvət olunurlar.



**Azərbaycan və Qırğızıstan şəhərsalma-memarlıq sahəsində əməkdaşlıq məsələlərini müzakirə ediblər.**

Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Anar Quliyev Qırğız Respublikasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Maksat Mamıtkanovla görüşüb. Bu barədə Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsi məlumat yayıb. Bildirilib ki, görüşdə ölkələrimiz arasında strateji tərəfdaşlıq, eləcə də şəhərsalma və memarlıq sahələrində əməkdaşlığın genişləndirilməsi məsələləri müzakirə edilib. Anar Quliyev Qırğızıstanın Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən bərpa və yenidənqurma işlərinə göstərdiyi qardaş dəstəyin yüksək qiymətləndirildiyini xüsusi olaraq vurğulayıb. O bildirib ki, cari ildə Ağdam rayonunun Xıdırlı kəndində məktəb binasının açılışı bu dəstəyin ən yaxşı nümunələrindən biridir və gələcəkdə Qırğızıstanla birgə layihələrin daha da uğurla inkişaf edəcəyinə əminliyini ifadə edib. Sonda Komitə sədri Qırğızıstan tərəfini 2026-cı ildə Bakıda keçiriləcək Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyasında (WUF13) fəal iştirak etməyə dəvət edib.



**Daşınmaz əmlaka dair texniki sənədlərin həqiqiliyini onlayn formada yoxlamaq mümkündür - Dövlət Xidməti.**

İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti tərəfindən daşınmaz əmlakın qeydiyyatı sahəsində şəffaflığın təmin olunması, prosedurların sadələşdirilməsi məqsədilə tətbiq edilən innovativ dəyişikliklər həm mülkiyyətçilər, həm də mülkiyyət sahibi olmaq istəyənlər üçün daha etibarlı hüquqi əməliyyatlar aparmağa imkan yaradır. Bu barədə Əmlak Məsələləri Dövlət Xidməti məlumat yayıb. Bildirilib ki, mülkiyyətçilər daşınmaz əmlaka dair texniki sənədlərini onlayn olaraq qeydiyyat və reyestr nömrələrini qeyd etməklə yoxlaya bilirlər. Torpaq sahəsinin plan və ölçü sənədi, mənzil, fərdi yaşayış evi və digər daşınmaz əmlaklara dair texniki sənədlərin əslinə ”www.e-services.economy.gov.az” Elektron Xidmətlər Portalında təqdim olunan “Daşınmaz əmlaka dair texniki sənədin (texniki pasport və ya torpaq sahəsinin planı və ölçüsü) yoxlanılması” elektron xidməti vasitəsilə baxış keçirmək olar. Adıçəkilən xidmətə keçid zamanı açılan pəncərədə texniki sənədin qeydiyyat və reyestr nömrəsini daxil edərək axtarış etmək mümkündür. Bu xidmət istifadəçiyə daşınmaz əmlak haqqında dolğun və həqiqi məlumat almağa imkan verir. Belə ki, qeyd edilən nömrələr əsasında sistemdə aşkar olunan plan ölçü və ya texniki pasportun təsviri əks olunur. Burada hüquq sahibinin məlumatları, daşınmaz əmlaka dair məlumatları və texniki təsviri göstərilir.



## “Sovetski”də görüləcək işlər məlum olub

“Sovetski” adlandırılan ərazinin köçürülməsi prosesi davam edir və orada da ancaq ictimai yerlər, parklar salınmalıdır. Süni göllər yaradılacaq və nəqliyyat sistemi qurulacaq, o cümlədən metro stansiyaları, Ağ Şəhərdə metro stansiya. İndi velosiped zolaqlarının yaradılmasına başlanılmışdır. Bu fikri Azərbaycan Prezidenti İlham Əliyev yanvarın 5-də yerli televiziya kanallarına müsahibəsində deyib. “Bilirəm, bəziləri bundan narazıdır. Amma inkişaf etmiş ölkələrin təcrübəsinə baxsaq görərik ki, bu da bir çıxış yoludur. Çünki bu, həm sağlamlıqdır, həm də ki, tıxaclara qarşı önəmli bir vasitə olacaq. Təbii olaraq ictimai nəqliyyat istədiyimiz səviyyədə olan zaman, əlbəttə, ictimai nəqliyyatdan istifadə etmək ən yaxşı variant ola bilər. Biz bunu etməyə çalışırıq. Yenə də deyirəm, hər il Bakıya yüzlərlə yeni avtobus gətirilir. Hazırda havanı çirkləndirməyən elektrobuslar istehsal olunur. Həm dövlət, həm də özəl şirkətlər tərəfindən hər il yüzlərlə yeni avtobus gətiriləcək. Biz Bakının tıxac problemini belə həll edə bilərik”, – deyə Prezident əlavə edib.



**Bu il 500 min ev sənədləşdiriləcək - ŞƏRTLƏR AÇIQLANDI**

2026-cı ilin Azərbaycanda "Şəhərsalma və Memarlıq ili" elan edilməsi uzun illərdir müzakirə olunan plansız və sənədsiz tikililər, riskli zonalarda olan tikilələrin aqibətini yenidən gündəmə gətirib. Biznes və maliyyə xəbərləri portalı xəbər verir ki, Milli Məclisin deputatı Rövşən Muradov qeyd edib ki, ölkə başçısının müvafiq sərəncamları ilə sənədsiz evlərlə bağlı artıq tapşırıqlar verilib və ölkəmizdə olan 500 minə yaxın sənədsiz evin sənədləşdirilməsi başlanılıb. "Əgər o evlər yüksək gərginlik elektrik şəbəklərinin, qaz xətlərinin SOCAR və dəmir yolu xətlərinə yaxın evlər istisna olmaqla digər evlərin sənədləşdirilməsi aparılacaq. Lakin strateji yerlərdə yerləşən sənədsiz evlər gələcəkdə sökülləcək. Bu o şərtlə baş verəcək ki, həmin insanlara müvafiq kompensasiyalar verilsin". Deputat qeyd edib ki, 2026-cı ilin "Şəhərsalma və Memarlıq İli" elan olunması, xüsusilə Böyük Qayıdışla bağlı həyata keçirilən ikinci dövlət proqramı çərçivəsində, Qarabağ və Şərqi Zəngəzurda aparılan bərpa-quruculuq işlərinə ciddi təkan verəcək. "Artıq İkinci dövlət proqramına uyğun olaraq təxirəsalınmaz işlərimizi davam etdirəcəyik". "2026-cı ilin "Şəhərsalma və Memarlıq İli" elan edilməsi, uzun illər yığılmış problemlərin həlli üçün əlverişli fürsət yaradır, lakin bu proseslərin uğuru düzgün strategiya və balanslaşdırılmış yanaşmadan asılıdır. İlin konkret sahəyə həsr edilməsi, ənənəvi olaraq, həmin sahəyə diqqətin artırılması, büdcə ayrılmalarının genişləndirilməsi və institusional islahatların sürətləndirilməsi üçün katalizator rolunu oynayır".



**Sərginin adı: STONEFAIR ASIA 2026**
**Tarixlər: 22-24 yanvar 2026-cı il,**
**Məkan: Karaçi Sərgi Mərkəzi, Karaçi (Pakistan)**
Stonefair Asia, daş sektorunda çalışan şirkətlərə həsr olunmuş əsas beynəlxalq tədbirlərdən biridir.

**Sərginin adı: BATIMEX 2026**
**Tarixlər: 28-31 yanvar 2026-cı il,**
**Məkan: Hôtel Sheraton Annaba, Annaba (Əlcəzair)**
Əlcəzair Tikinti və İnkişaf Sərgisi. BATIMEX tikinti sektorundakı ən son irəliləyişlərə və yeni texnologiyalara giriş qapısıdır. Geniş çeşiddə konfranslar.

**Sərginin adı: INDIA CERAMICS ASIA 2026**
**Tarixlər: 28-30 yanvar 2026-cı il,**
**Məkan: Vertolyot Meydançası Sərgi Mərkəzi (HEC), Qandinaqar (Hindistan)**
İNDİSTAN CERAMICS ASIA, keramika və maşın təchizatçıları üçün xammalları unikal B2B platformasında bir araya gətirir. Hindistan bu gün dünyanın ən böyük keramika istehsalçılarından və ixracatçılarından biridir.

**Sərginin adı: KLIMAHOUSE 2026**
**Tarixlər: 28-31 yanvar 2026-cı il,**
**Məkan: Fiera Bolzano, Bolzano (İtaliya)**
İtaliyanın resurs və enerjiyə qənaət edən tikinti üzrə beynəlxalq sərgisi. Klimahouse innovasiya, startaplar və yaxşı tikintinin yaxşı həyatla sinonim olduğuna inananlar üçün bir məkan yaradır.

**MƏCBURİ KÖÇKÜNLƏRİN SOSİAL İNKİŞAF FONDU TENDER ELAN EDİR.**

Məcburi Köçkünlərin Sosial İnkişaf Fondu açıq tender elan edir.
Elanda Cəbrayıl rayonunun Şükürbəyli 1042 ailəlik (birinci mərhələdə - 635 ailəlik) kənd yaşayış məntəqəsində klub-icma mərkəzinin tikintisi nəzərdə tutulub.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Hüseynova Aygün, Satınalmalar üzrə menecerin müavini
Email: a.huseynova@sfdi.gov.az
Əlaqə telefonu: +994 12 431 87 03



**BAKI SLAVYAN UNİVERSİTETİ TENDER ELAN EDİR.**

Bakı Slavyan Universiteti elan edir.
Elanda Bakı Slavyan Universitetinin tədris binalarının və yataqxanasının cari təmir işlərinin satın alınması nəzərdə tutulub.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Elçin Hüseynov, Satınalma komissiyasının sədri
Email: h.elchin@bsu-uni.edu.az
Əlaqə telefonu: +994 12 599 08 70 (101)



## "BAKI ŞƏHƏR ƏSASLI TİKİNTİ VƏ TƏMİR" MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ TENDER ELAN EDİR.

"Bakı Şəhər Əsaslı Tikinti Və Təmir" Məhdud Məsuliyyətli Cəmiyyəti açıq tender elan edir.
Elanda Bakı şəhəri ərazisində dövlət mənzil fonduna aid binaların təmiri işlərinin layihə-smeta sənədlərinin hazırlanmasının satın alınması nəzərdə tutulub.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Xələf Şıxəliyev, Mühəndis
Email: ahmed.mmmdov@gmail.com
Əlaqə telefonu: +994 50 612 15 27



**DAXİLİ İŞLƏR NAZİRLİYİNİN KOMENDAT XİDMƏTİ TENDER ELAN EDİR.**

Daxili İşlər Nazirliyinin Komendat Xidməti açıq tender elan edir.
Elanda AR DİN-in inzibati binasının cari və əsaslı təmiri nəzərdə tutulub.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Rza Mustafayev, Mühasib-xəzinədar
Email: rza84@mail.ru
Əlaqə telefonu: +994 12 590 98 83



**"DAŞINMAZ ƏMLAKIN DÖVLƏT KADASTRI VƏ REYESTRİ" PUBLİK HÜQUQİ ŞƏXSİ TENDER ELAN EDİR.**

"Daşınmaz Əmlakın Dövlət Kadastrı Və Reyestri" Publik Hüquqi Şəxsi açıq tender elan edir.
Elanda 1 saylı Bakı Ərazi İdarəsinin Bakı şəhəri, Nərimanov rayonu, Ələsgər Qayıbov 40 ünvanında yerləşən inzibati binasında təmir və yenidənqurma işlərinin alınması nəzərdə tutulub.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Gülarə Həsənova, Baş mütəxəssis
Email: ghesenova@emlak.gov.az
Əlaqə telefonu: +994 12 510 84 30



**AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİ TENDER ELAN EDİR.**

Azərbaycan Respublikası Müdafiə Nazirliyi açıq tender elan edir.
Elanda Azərbaycan Ordusunun hərbi hissələri üçün inşaat materialları və əlaqədar digər malların satın alınması (LOT 6). nəzərdə tutulub.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Vüqar Abbasov, Satınalma komissiyasının üzvü
Email: satinalma@mod.gov.az
Əlaqə telefonu: +994 12 525 37 92





[www.atmia.az](http://www.atmia.az)